BUILDING TRUST

# MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# SikaTop®-107 Seal AZ

İki komponentli sement akril tərkibli su izolyasiya materialı

## TƏSVİR

SikaTop®-107 Seal AZ, iki komponentli, maye polimer və sement əsaslı, xüsusi əlavələrlə gücləndirilmiş su izolyasiya materialıdır. İçmə suyu ilə təmasa uyğundur.

## İSTİFADƏ YERLƏRİ

- Daxili və xarici məkanlarda
- Beton, suvaq, kərpic, hörgü daşlarının su və nəmə qarşı qorunmasında
- Struktur betonların, donma-ərimə döngüsünün və əridici duzların zərərlərinə qarşı qorunmasında
- Yeni və bərpa layihələrində su və nəmə qarşı qoruma təbəqəsi olaraq
- Gözənəklərin doldurulmasında
- Bünovrə və zirzəmi divarlarında müsbət yönlü izolyasiya olaraq
- Hərəkəti olmayan statik incə tel çatların doldurulmasında
- Balkonların, sanitar qovşaqların izolyasıyasında (qoruyucu təbəqə ilə)
- Su strukturların və içməli su anbarlarının izolyasiyasında

## ÜSTÜNLÜKLƏRİ

- Asan, sürətli qarışdırma və tətbiq
- Fırça vəya mala, avadanlıqla püskürtmə tətbiqə uyğunluğu
- Qarışdırmaya hazır qablaşdırmada olması
- Hazırlanmış səthə yüksək yapışma
- Betonun karbonatlaşmaya qarşı qoruması
- Yüksək su keçirməzlik xüsusiyyəti
- Dəmir və polada koroziv olmaması
- İçmə suyu ilə təmasa uyğunluğu
- Şaquli və üfiqi tətbiqə uyğunluğu
- Üzəri boyana bilən olması

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

- BS 6920 standardına uyğun olaraq İçmə Suyu ilə Təmas uyğunluğu – Hacettepe Universiteti, Eczacılıq Fakulteti, D.C.C (B.30.2.HAC.0.AP.00.00/2006-002) – (03.01.2006)
- İçmə Suyu ilə Təmas uyğunluğu - Istanbul Texniki Universiteti, İnşaat mühəndisliyi Fakulteti, Ətraf Mühit Mühəndisliyi bölümü – (Noyabr 2000)
- EN 1504-2 (method 1.3, 2.2 and 8.2) standardına uyğun olaraq-Beton Qoruma qarışımı
- AZS Sertifikatı

## MATERIAL MƏLUMATI

| | | |
|---|---|---|
| **Kimyəvi əsası** | A komponenti: Maye polimer və əlavələr<br>B komponenti: portland sement, əlavələr və seçilmiş aqreqat dolğular | |
| **Qablaşdırma** | A+B | 25 kg |
| | A komponenti | 5 kg, Plastik qab |
| | B komponenti | 20 kg, Torba |
| **Görünüş və rəng** | A komponenti : Bəyaz maye<br>B komponenti : Boz toz<br>Qarışdırılmış məhlul: Tünd Boz rəng | |
| **Saxlama Müddəti** | Düzgün saxlama şərtlərində istehsal tarixindən etibarən 12 ay. | |

| | |
|---|---|
| **Saxlama Şərtləri** | Açılmamış, zədələnməmiş qablaşdırmada, quru və sərin yerdə +5°C və +35°C temperatur aralığında saxlanmalıdır. Maye komponent şaxtadan və birbaşa günəş şüalarından qorunmalıdır. |
| **Sıxlığı** | Qarışdırılmış təzə məhlul : ~ 1.85 kq/lt |

## TEXNİKİ MƏLUMATLAR

| | |
|---|---|
| **Dartma yapışma gücü** | ≥ 1 N/mm2 |

## TƏTBİQ MƏLUMATI

| | |
|---|---|
| **Qarışdırma nisbəti** | A : B = 1: 4 (ağırlıqca) fırça qatılığı üçün<br>A : B= 1:5 (ağırlıqca) mala qatılığı üçün |
| **Sərfiyyat** | İstifadə miqdarı, səthin kobudluğundan, hamarlılığından və tətbiq qalınlığından asılıdır. Teorik olaraq :~ 1.85 kg/m²/mm (itgi, səth profili və hopduruculuq nəzərə alınmadan) |
| **Məhsuldarlıq** | 25 kq-lıq qablaşdırma ~ 13.5 lt məhlul |
| **Təbəqə qalınlığı** | Tək qatda təbəqə qalınlığı Min. 0.75 mm / Maks. 1.5 mm<br>1-ci qat — ~1.40 kg/m² qarışım<br>2-ci qat — ~1.40 kg/m² qarışım<br>3-cü qat — ~1.00 kg/m² qarışım |
| **Məhsul temperaturu** | Min. +8°C / Maks. +25°C |
| **Ətraf mühit temperaturu** | Min. +8°C / Maks. +35°C |
| **Səthin temperaturu** | Min. +8°C / Maks. +25°C |
| **İstifadə müddəti** | ~30 dəqiqə +20 °C-də |
| **Növbəti qat üçün gözləmə müddəti** | +10°C — ~ 12 saat<br>+20°C — ~ 6 saat<br>+30°C — ~ 3 saat<br>Təbəqələr arasında gözləmə müddəti ətraf mühit şərtlərindən asılıdır. |

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- SikaTop®-107 Seal AZ, dekorativ örtük deyildir, nəmli hava vəya yağmur səthdə bəyaz ləkələnməyə səbəb ola bilər, bunun su keçirməzliyə təsiri yoxdur.
- Heç bir halda su əlavə edilməməlidir.
- Yalnız müqavimətli, hazırlanmış səthlərə tətbiq edilməlidir.
- Tək qatda bildirilən maksimum təbəqə qalınlığı aşılmamalıdır.
- Əgər SikaTop®-107 Seal AZ tətbiqində səthin temperaturu +5°C-dən aşağı və ya +25°C-dən yuxarıdırsa, uyğun temperaturlar gözlənilməlidir. Həmçinin çox isti, yağışlı və küləkli havalarda tətbiq edilməməlidir.
- Su və nəmə qarşı izolyasiya məqsədi ilə toplamı 1.5 - 2.0 mm olmaqla ən az iki qat təbiq edilməlidir. Suyun ciddi şəkildə nüfuz edəbiləcəyi səthlərə üç qat tətbiq olmalıdır.
- Sement və akril tərkibli materialların işləmə və reaksiya müddəti ətraf mühitin və səthin temperaturundan, havadakı nisbi rütubətdən təsirlənir. Aşağı temperaturlar kimyəvi reaksiyanı ləngidir, iş müddətini, örtülmə müddətini və işlənmə vaxtını artırır. Özlülük artdığı üçün əhatə sahəsi azalır. Yüksək temperatur kimyəvi reaksiyanı sürətləndirir və bundan asılı olaraq yuxarıda göstərilən vaxtlar azalır. Materialın doğru bərkiməsini başa çatdırmaq üçün ətraf mühit və səth temperaturu icazə verilən minimum dəyərdən aşağı düşməməlidir.
- Yeni tətbiq olunan SikaTop®-107 Seal AZ (+23°C temperaturda) 3 gündən sonra mexaniki möhkəmlik qazanır, 7 gündən sonra su keçirməz olur, 14 gündən sonra isə son möhkəmliyini qazanır. Su anbarları strukturlarında Min. 14 gün quruma müddəti (+23°C) təmin edilməlidir. Daha yüksək temperaturlar quruma müddətini azaldır, aşağı temperaturlar quruma müddətini artırır.
- Xarici məkan tətbiqlərində təzə tətbiq olunan təbəqə ilk 24 saat ərzində günəşdən, küləkdən, dondan və yağışdan qorunmalıdır.
- SikaTop®-107 Seal AZ üzəri açıq olaraq piyada hərəkətinə uyğun deyildir. Tətbiq səthinin üzəri

qoruyucu təbəqə və ya SikaScreed® şapları, SikaLatex® / SikaPaver®-125 əlavə edilmiş sement qarışımları ilə qorunmalıdır. SikaCeram® yapışdırıcıları plitə tətbiqləri üçün tövsiyə olunur.
- İzolyasiya təbəqəsi zədələnmədən qorunmalı, sabitləmə elementləri Sikadur® 31 vəya SikaFlex® 11FC+ ilə yapışdırılmalıdır.
- İçmə suyu ilə təmas etdikdə, istifadə olunan digər əlavə materiallarında içmə suyu ilə təmasa uyğunluğu yoxlanılmalıdır.
- Bağlı məkanlarda tətbiq zamanı yetərli hava dövranı təmin edilməlidir.

# ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

# TƏTBİQ TƏLİMATLARI

## SƏTHİN KEYFİYYƏTİ

Səth, struktur olaraq sağlam, müqavimətli və təmiz olmalı, beton şərbəti, çirk, toz, yağ, parafin kimi yapışqanlıq azaldıcı bütün çirkləndirici qalıqlardan (boya və s.) təmizlənməlidir. Betonun "çəkmə" (dartılmaya qarşı yapışma) gücü > 1,0 N/mm² olmalıdır.

## SƏTH HAZIRLIĞI

- Səth lazımı bərkiməsini tamamlamış olmalı, struktur cəhətdən sağlam, hər hansı boş və ya zəif tutunmuş hissəciklərdən, sement şərbətindən, toz, kir, yağ, sement qalığı və digər çirkləndiricilərdən arındırılmış olmalıdır. Məhsulun səthə yapışmasını azalda biləcək hər hansı materialın bütün izlərini aradan qaldırmaq üçün qumlama və mexaniki aşındırma edilməlidir.
- Səthdə ki kiçik boşluqlar, gözənəklər kimi yüngül səth qüsurları əlavə qat SikaTop®-107 Seal AZ ilə əvvəlcədən doldurula və düzəldilə bilər. Daha böyük və qalın səth hamarlanması və təmiratı üçün SikaRep®, Sika MonoTop® və ya Sikafloor® Level seriyasından müvafiq məhlullardan istifadə edilməlidir.
- Səthdəki statik və dinamik çatlar tətbiq öncəsində müəyyən edilməli və müvafiq şəkildə Sikadur® epoksi qatranları və ya Sikadur®Combiflex sistemi ilə sızdırmazılığı təmin edilməlidir.

İsti havalarda/mühitlərdə və/və ya hopdurucu səthlərdə məhsulun tətbiqindən əvvəl səthi yaxşıca nəmləndirilməli, lakin səthdə hər hansı su qalığı olmamalı, hiss edilən nəmlik və tünd tutqun/nəmli səth görünüşü yəni doymuş quru səth olmalıdır (SSD).

## QARIŞDIRMA

A - maye komponenti təmiz bir qarışdırma qabına boşaldın. B - toz komponenti yavaş-yavaş əlavə edərək aşağı sürətlə (maks. 500 rpm) elektrikli qarışdırıcı ilə qarışdırmağa başlayın. Eynicinsli, topaqsız qarışım əldə etmək üçün ən az 3-5 dəqiqə qarışdırmağa davam edin. Qarışdırma bitdikdən sonra 3-5 dəqiqə gözləyin, yenidən 15-20 saniyə qarışdırıb istifadəyə hazır edin. Beton qarışdırıcı avadanlığı ilə qarışdırmayın.

## TƏTBİQ

**Fırça Tutarlılığı:**
Məhlul, incə plastic telli əl fırçası ilə vəya püskürtmə avadanlığı ilə tək bir yöndə , eyni qalınlıqda tətbiq edilməlidir. 2-ci qat SikaTop®-107 Seal AZ təbəqəsi, çarpaz istiqamətdə ilk qat müqavimətini aldıqdan sonra eyni üsulla tətbiq edilməlidir.
**Qatı Tutarlılıq(Mala tətbiqi):**
Qatı tutarlılıq üçün B toz komponent , A komponentin 80% -i ilə qarışdırılmalıdır. (~ 1 A : 5 B). İlk qat gözənək və boşluqların doldurulması üçün mala səthə basdırılaraq sıyırma çəkilməlidir. 2-ci qatın tətbiqi, ilk qat bərkidikdən sonra tək istiqamətdə eyni qalınlıqda olmalıdır.

## AVADANLIQ TƏMİZLİYİ

Tətbiqdən dərhal sonra alət və avadanlıqlar su ilə təmizlənməlidir. Kürlənmiş və bərkimiş material yalnız mexaniki olaraq təmizlənir.

# HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12